10

**"MOORE STEPHENS AZƏRBAYCAN"**
**MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN**
**DİREKTORU CƏNAB FARİZ ƏHMƏDOVA**

**Hörmətli Fariz müəllim!**

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri adından "Moore Stephens Azərbaycan" məhdud məsuliyyətli cəmiyyətinin fəaliyyətə başlamasının **10** illik yubileyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi səmimi qəlbdən təbrik edirəm.

"Moore Stephens Azərbaycan" MMC beynəlxalq firmalar şəbəkəsi olan "Moore Global" şirkətinin üzvü olaraq 2013-cü ilin may ayından etibarən öz işçi heyəti ilə birlikdə Azərbaycan da da öz ofisini açaraq, şirkətlərə və dövlət müəssisələrinə Beynəlxalq Audit Standartlarına uyğun peşəkar audit və məsləhət xidmətləri göstərir.

Ümummilli liderimizin uzaqgörən müdrik siyasətinə əsaslanaraq, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən cəmiyyət həyatının bütün sahələrində, o cümlədən iqtisadiyyatda aparılan əzəmətli quruculuq işləri hər gün yeniləşən, sürətlə inkişaf edən Azərbaycana xarici şirkətlərin də marağını artırmışdır. "Moore Stephens Azərbaycan" məhdud məsuliyyətli cəmiyyəti daim öz müştərilərinin yanında olmuş, onları hər zaman dəstəkləmiş, onların fəaliyyətində şəffaflığın artırılmasında mühüm rol oynamış və bu səbəbdən Azərbaycanda fəaliyyətinin miqyasını kifayət qədər genişləndirmişdir.

Fərəh hissi ilə qeyd edirik ki, 10 il ərzində "Moore Stephens Azərbaycan" MMC nümunəvi fəaliyyət prinsipi ilə ölkədə audit sahəsində keçirilmiş tədbirlərdə iştirakı ilə yanaşı beynəlxalq səviyyəli konfranslarda, simpoziumlarda, forumlarda, seminarlarda və digər tədbirlərdə Auditorlar Palatasının üzvü kimi dəstək göstərmiş və həmin tədbirlərdə fəal iştirakınız həmişə rəğbətlə qarşılanmışdır.

**Hörmətli Fariz müəllim!**

Biz ölkəmizin inkişafı naminə fəaliyyətinizin gələcəkdə daha da genişləndirilməsi istiqamətində səylərinizin davam etdirilməsinə ümid bəsləyirik. Ölkəmizdə yeni dövrün çağırışları nəzərə alınmaqla şirkətinizin auditor təşkilatları arasında ön sıralarda olmağını arzulayırıq.

**Dərin hörmətlə,**

Azərbaycan Respublikasının Auditorlar Palatası
Chamber of Auditors of Azerbaijan Republic

**Vahid NOVRUZOV**
**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri,**
**iqtisad elmləri doktoru, professor**